# "Əli Tudə" kitabı ürəyimizi güneyə sarı tərpədir

## Azərbaycanımızın güneyini əhatə edən hər nə varsa, ana südü kimidir

**"Vahid Azərbaycan arzusuyla..." avtoqrafı ilə kitab təqdim olunursa, o kitab kimdən, nədən bəhs edər, sizcə? Təbii ki, yurdumuzun güneyindən. Məzmun nə olursa olsun, tarixdimi, etnoqrafiyadımı, yazıçı, şair həyatıdımı, roman, povestdimi, fərq etmir. Azərbaycanımızın güneyini əhatə edən hər nə varsa, ana südü kimidir.**

Onsuz, yaşamaq mümkün deyil. Xoşbəxtik ona görə ki zaman-zaman bizlərə - quzeyə güneyimizin ruhunu yazılarında, şeirlərində, müxtəlif məzmunlu əsərlərində çatdıranlarımız olub və var. Və var, olacaq da. Qarşımızda "Əli Tudə" kitabını görəndə bu hissləri yaşadıq. Ürəyimiz çırpındı güneyə sarı. Kaş ki, ustad Şəhriyarın "bir uçaydım bu çırpınan yelinən..." yanğısı gerçək olaydı, quşa dönüb elimizə doğru qanad aça biləydik... Olacaq, inşallah! Əli Tudə güneyimizin azadlığına inanıb, bu inam yaşadıb onu elindən uzaq olsa da:

**Gün gələr, ucalar haqqın nəğməsi,**
**O gün yaxındadır, deyildir uzaq.**
**Onda ədalətin öz məhkəməsi**
**Haqqı dananlara divan tutacaq,**
**O gün yaxındadır, deyildir uzaq!**

Güneyimizin, həm də quzeyimizin görkəmli nəğməkarının, ustad şairinin bu sarsılmaz inamı hər kəsə sirayət edib. Zatən, inam olmasa həyat nəyə gərəkdir...




Qeyd etməliyik ki, "Əli Tudə" adlı kitab görkəmli şairin 100 illik yubileyi ərəfəsində nəşr edilib. Kitab geniş məzmunludur. Burada şairin həyat və yaradıcılığı müasirlərinin, Azərbaycanımızın görkəmli ziyalılarının, elm, mədəniyyət xadimlərinin onun haqqında qələmə aldığı yazılarla, tədqiqat materialları ilə, dövri mətbuatda yer almış məqalələr, efirdə yayımlanmış sənədli filmlər, eyni zamanda şairin özünün qələmindən çıxan möhtəşəm poeziya nümunələri ilə təqdim olunur.

Bu kitabda yer verilmiş hər bir material Əli Tudənin güney həsrətiylə keçən ömrünə gur işıq salır. Bilmirsən, hansını önə çıxarasan... Diqqətimizi bir material cəlb etdi; ustad şairin ömür-gün yoldaşı Şəfiqə xanımın "Mənim Əli Tudə ilə ailə qurmağım Allahın qismətidir...", cümləsi ilə başlayan xatirələri: "...təzə ailə qurmuşduq. Balaş Azəroğlu, Mədinə Gülgün bizə yığışırdı. Balaş Azəroğlu İrandan təzə gələndə bir müddət bizimlə İçərişəhərdəki mənzilimizdə yaşamışdı. Evimizdə həmişə qızğın yaradıcılıq müzakirələri gedirdi. Əli cənubdan gələn şairlərə çox kömək edir, məsləhətlərini verirdi. Ailə başçısı kimi həmişə ondan razı olmuşam. Əli çox ailəcanlı idi. Uşaqlarını həddindən artıq sevirdi". Şəfiqə xanımın və şairin oğlu Natiq Cavadzadənin də həzin xatirələrinin yer aldığı məqalə 2005-ci ildə "Kaspi" qəzetində çap olunub. Natiq Cavadzadə atasının Vətən həsrəti ilə keçən ömrünün son günlərindən danışıb: "Mən ömrümdə atamı bir dəfə gözləri yaşaran görmüşəm. Təbrizdən gələndən 18 il sonra xalasından ilk dəfə məktub almışdı. Məktubu oxuya-oxuya gözlərinin yaşardığını gördüm. Məni görəndə özünü toxtatdı. 18 il onun İranla əlaqəsi olmayıb. 1991-ci ildə atamın İranda yaşayan əmisi oğlu Hacı Cavad dəvətnamə göndərərək məni, anamı və atamı İrana dəvət etdi. Mənim yeganə məqsədim atamın yaşlı vaxtında Vətənini görməsi idi. Çünki atam Təbriz həsrəti ilə yaşayırdı...". Lakin həsrətin bitməsi yoxmuş şairin taleyində. Oğlu Natiq nə qədər çalışsa da, Təbriz səfəri alınmayıb. İranın Azərbaycandakı səfirliyi oğula, anaya icazə verib, şairin özünə yox, "siyasi mühacirsən", qadağası qoyaraq. Şair oğlu Natiqi və Şəfiqə xanımı Təbrizə göndərib ki, heç olmasa siz gedin. Cəmi 18 gün qalıblar Təbrizdə. Natiq Cavadzadə "Bakıya qayıdıb evə daxil olanda, inanın ki atamı tanımadım. O, rəngi saralmış, solmuş bir adam idi...". Bu hadisə şairi dərindən sarsıdıb. Əli Tudə 2 ay xəstə yatıb və Təbriz həsrətiylə də dünyadan köçüb... Görkəmli şairimiz Nəriman Həsənzadə də bu hadisəyə toxunaraq "iki imperiya bir şairdən qorxdu", yazmışdı. Əli Tudə özü isə:

**"Sanki mərmi udan bir əsgər idim,**
**Özünçün, özgəyçün təhlükəliydim.**
**Özüm çox deyildim, bir nəfər idim,**
**Ancaq bir ölkəyçün təhlükəliydim..."**

yazmışdı.

Əli Tudənin

**"Sahil var, qoymayır ki,**
**Ayrılanlar görüşə.**
**Sahil var, ayrılıqdan**
**Körpü salır görüşə"**

misralarını çox yaxın zamanda Azərbaycanımızın quzeyiylə güneyinin birləşməsinə tükənməyəcək böyük bir ümid kimi oxuyuruq. Bu gün Arazın üzəriylə körpü salınır, qədim körpülər bərpa edilir. İnanırıq ki, o taylı bu taylı soydaşlarımızın o körpülərin üzərində görüşəcəyi gün uzaqda deyil, çox yaxındadır.

**Məlahət Rzayeva**